| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 7. | Bağacığa qarşı mübarizə, eləcə də monitorinq və əlaqələndirmə tədbirlərinin həyata keçirilməsi məqsədilə vahid elektron platformanın, həmçinin "Qaynar xətt"in yaradılması | 2023-cü il | Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi |
| 8. | Bağacığa qarşı mübarizə tədbirləri həyata keçirildikdən sonra sirayətlənmiş ərazilərdə təkrar monitorinqlərin aparılması | mütəmadi | Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti |
| 9. | Bağacığın yayıldığı ərazilərdə və sirayətlənmə ocaqlarında, eləcə də qışlama yerlərində biotəhlükəsizlik qaydaları və gözlənilən risklər nəzərə alınmaqla mexaniki, biotexniki (feromon tələlərə üstünlük verilməklə), bioloji və kimyəvi mübarizə tədbirlərinin həyata keçirilməsi | mütəmadi | Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi, Fövqəladə Hallar Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 10. | Meşə fondu ərazilərində bağacığa qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi | mütəmadi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti |
| 11. | Gömrük-sərhəd buraxılış məntəqələrində, həmçinin dəmiryol stansiyalarında bağacığa nəzarətin gücləndirilməsi və müvafiq zərərsizləşdirmə tədbirlərinin görülməsi | mütəmadi | Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi, Dövlət Gömrük Komitəsi, "Azərbaycan Dəmir Yolları" QSC |

---

HÜQUQ VƏ QANUNVERİCİLİK ŞÖBƏSİ

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**Qəhvəyi mərmər bağacığına qarşı bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, ölkədə qəhvəyi mərmər bağacığının aşkarlanması ilə əlaqədar təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, həmin zərərvericinin respublikanın digər ərazilərinə yayılmasının qarşısının alınması, mövcud yayılma ocaqlarının ləğv edilməsi və fitosanitar sabitliyin təmin edilməsi məqsədilə:

1. "Qəhvəyi mərmər bağacığına qarşı bitki mühafizəsinə dair Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın birinci hissəsi ilə təsdiq edilmiş Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin koordinasiyalı icrasını təşkil etmək məqsədilə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin rəhbərliyi ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin və yerli icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət Regional Əlaqələndirmə Mərkəzi yaradılsın.

3. Bitki və bitkiçilik məhsullarının, eləcə də meşə fondunun qəhvəyi mərmər bağacığından mühafizəsi və ona qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti tərəfindən həyata keçirilsin.

4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti bitki mühafizəsi və qəhvəyi mərmər bağacığına qarşı mübarizə tədbirlərinin operativ şəkildə həyata keçirilməsi məqsədilə tələbata uyğun zəruri vasitələrin mərhələli şəkildə alınmasını təmin etsinlər.

Daxil olma № 3-44/1-53/2023
«06» yanvar 2023
Vərəq 1
HÜQUQ VƏ QANUNVERİCİLİK ŞÖBƏSİ

5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə gömrük-sərhəd buraxılış məntəqələrində və yük qatarlarında qəhvəyi mərmər bağacığına qarşı mübarizə tədbirlərinin aparılmasını təşkil etsin.

6. Yerli icra hakimiyyəti orqanları qəhvəyi mərmər bağacığına qarşı bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsində aidiyyəti dövlət qurumlarına lazımi kömək göstərilməsini təmin etsinlər.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 4-cü hissəsində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsini təmin etsin.

8. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi qəhvəyi mərmər bağacığına qarşı görülmüş tədbirlər və onların nəticələri barədə ayda bir dəfədən az olmayaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

9. Bu Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevə həvalə edilsin.

10. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı ÜMUMİ ŞÖBƏ

Bakı şəhəri, "30" dekabr 2022-ci il

№ 819s

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2022-ci il 30 dekabr tarixli 819s nömrəli
Sərəncamı ilə **təsdiq edilmişdir**.

**Qəhvəyi mərmər bağacığına qarşı bitki mühafizəsinə dair**

**TƏDBİRLƏR PLANI**

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçılar |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | Qəhvəyi mərmər bağacığına (bundan sonra - bağacıq) qarşı səmərəli və elmi əsaslandırılmış mübarizənin aparılması məqsədilə beynəlxalq ekspertlər cəlb edilməklə bu sahədə təcrübənin öyrənilməsi və optimal mübarizə üsullarına dair təkliflərin hazırlanması | 2023-cü il yanvar-fevral ayları | Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti |
| 2. | Bağacığın bioloji xüsusiyyətləri, qidalandığı bitkilər, vurduğu zərər və mübarizə üsullarına dair maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | mütəmadi | Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti, Elm və Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 3. | Bağacığa qarşı səmərəli mübarizənin aparılması məqsədilə fermerlərə və ev təsərrüfatlarına məsləhət xidmətinin təşkil edilməsi | mütəmadi | Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi |
| 4. | Ölkə ərazisində bağacığa qarşı bioloji mübarizə üsulları və imkanları ilə bağlı elmi tədqiqatların aparılması və təkliflərin hazırlanması | mütəmadi | Elm və Təhsil Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi |
| 5. | Bağacıqla mübarizə məqsədilə feromon tələlərin, pestisidlərin, müvafiq texniki vasitələrin və avadanlıqların mərhələli şəkildə alınması | 2023-cü il | Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti, Qida Təhlükəsizliyi Agentliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi |
| 6. | Bağacığın yayıldığı ərazilərdə və sirayətlənmə ocaqlarında operativ məlumatın toplanılması məqsədilə monitorinqlərin aparılması, məlumatların təhlili və zərərvericiyə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi | mütəmadi | Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti, Dövlət Gömrük Komitəsi, "Azərbaycan Dəmir Yolları" QSC, yerli icra hakimiyyəti orqanları |

HÜQUQ VƏ QANUNVERİCİLİK ŞÖBƏSİ

51